# Ey Allahın Rəsulu, böyük və kiçik günah nə varsa hamısını etmişəm. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) :Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Onun rəsulu olduğuna şahidlik etmirsənmi?

Ənəsdən (Allah ondan razı olsun) rəvayət ediliyinə görə belə dedi: Bir kişi Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək dedi:"Ey Allahın Rəsulu, böyük və kiçik günah nə varsa hamısını etmişəm. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) :Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Onun rəsulu olduğuna şahidlik etmirsənmi?" deyə bunu üç dəfə soruşdu. Adam: "Bəli" dedi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Şübhəsiz ki, bu o günahlara üstün gəlir." deyə cavab verdi.

[Səhih] [Əbu Yalə, Ət-Tabarani, Əd-Diya Əl-Maqdisi rıvayət etdi]

Bir kişi Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək dedi: Ey Allahın Rəsulu, mən böyüklü kiçikli bütün günah və asiliklərdən etdim. Mən bağışlana bilərəmmi? Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: Məgər Allahdan başqa ibadətə layiq məbud olmadığına və Muhəmmədin Onun rəsulu olduğuna şahidlik etmirsənmi? Bunu üç dəfə təkrar etdi. Və adam: "Bəli şahidlik edirəm" deyə cavab verdi. Peyğəbmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona şəhadət kəliməsinin fəzilətini, günahları silməsini və tövbənin özündən öncəki günahları yox etməsini xəbər verdi .



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee